**Mübariz Məmmədhüseyn oğlu BAĞIROV i.e.d., prof**
Milli Aviasiya Akademiyası
mubariz.bagirov61@gmail.com

**Azər Hüseyn oğlu MEHDİYEV**
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
mehdiyev.azer@atmu.edu.az
**ORCID:** 0009-0004-1676-4758

# FORMULA 1 YARIŞLARININ TURİZMƏ TƏSİRİ VƏ İQTİSADİ DİNAİMKANIN TƏMİN EDİLMƏSİNDƏ ROLU: AZƏRBAYCAN NÜMUNƏSİ VƏ BEYNƏLXALQ TƏC-RÜBƏ

**Xülasə**

Bu məqalə Formula 1 Qran Pri yarışlarının iqtisadi dinamizmə təsirini Azərbaycan və Beynəlxalq təcrübədə qiymətləndirir. Tədqiqat turizm, məşğulluq, infrastruktur və ölkənin beynəlxalq imici üzrə faydaları və riskləri analiz edir. Nəticələr göstərir ki, F1 qısa müddətli faydalar olaraq turist xərcləmələri yaradır, əlavə iş yerlərinin yaranmasına səbəb olur. Uzun müddətdə isə ölkənin turizm destinasiyası olaraq beynəlxalq imicini gücləndirir və infrastrukturun inkişafına səbəb olur. Azərbaycan təcrübəsinə baxdıqda, F1 yarışları iqtisadiyyatın şaxələnməsinə, qeyri-neft sektorunun, xüsusən də turizmin inkişafına töhfə verir. Beynəlxalq təcrübədə Sinqapur, ABŞ və Monako kimi nümunələr güclü turist axınına və iqtisadi aktivliyin artımına səbəb olduğu müşahidə olunur. Bununla belə, yüksək ev sahibliyi haqları və təşkilati xərclər çox vaxt büdcə dəstəyi tələb edir və bəzi araşdırmalar birbaşa gəlirin məhdud ola biləcəyini bildirir.

Açar sözlər: *formula 1, iqtisadi təsir, meqa tədbir, iqtisadi inkişaf*

**UOT:** 33
**JEL:** F-52
**DOI:** https://doi.org/ 10.54414/QUOV7868

**Giriş**

Meqa-idman tədbirlərinə ev sahibliyi etmək iqtisadi fəallığı artırmaq və dünyada özünü tanıtmaq istiyən ölkələr və şəhərlər üçün populyar strategiyadır. Belə tədbirlər arasında Formula 1 Qran Pri yarışları dünyada böyük izləyici auditoriyasına sahib tədbir kimi seçilir. Dünya üzrə təqribən illik 500milyon izləyiciyə sahib F1 yarışları ev sahibi ölkələrinə və şəhərlərinə misilisiz beynəlxalq tanıtım təklif edir [7]. F1 təqvimi beş qitəni əhatə edir və hər bir yarış həftəsonu on minlərlə ziyarətçini cəlb edərək, turizmin və yerli bizneslərdəki xərcləməri artımına təsir göstərir. Hökümətlər F1-ə ev sahibliyi etməyin yüksək xərclərini, qonaqpərvərlik sektoruna potensial artımlarını, iş yerlərinin yaradılması və artırılmasını, ölkəni dünyada turizm destinasiyası olaraq tanıtılmasına imkan olaraq əsaslandırırlar [1][7]. Bu yanaşma Azərbaycanın öz iqtisadiyyatını neft sektorundan başqa sahələrə şaxələndirmək kimi strategiyasına uyğun gəlir. Bu məqsəd üçün 2016-cı ildən bəri hər il Bakı küçələrində keçirilən Qran Pris bunun qabaqcıl təşəbbüsüdür.

Bunlara baxmayaraq, F1 yarışlarının keçirilməsi iqtasadiyyata təsiri müzakirə mövzusudur. Təşviq xarakterli araşdırmalar və rəsmi məlumatlar F1 yarışlarının yüksək rəqəmli dolayı və birbaşa gəlirlərini göz önünə gətirsələr də, bəzi müstəqil araşdırmalar bu gəlirlərin bu yarışların keçirilməsi üçün edilən xərclərdən üstün

olub-olmadığını sorğulayırlar. Bu məqalə F1 yarışlarının iqtisadi dinamikaya təsirini, davamlı iqtisadi artıma və fəallığa təkan vermə rolunu araşdırır və beynəlxalq təcrübə ilə müqayisə edir. Məqalə F1-ə ev sahibliyi etməyin çoxşaxəli iqtisadi nəticələrini əhatə edir, qısa müddətli turizm gəlirlərindən uzun müddətli inkişaf təsirlərinə qədər və gəlir və xərclər arasındakı tarazlığı araşdırır.

**Formula 1-in Beynəlxalq təcrübədə iqtisadi təsiri**

Qlobal olaraq Formula 1 Qran Pirsə ev sahibliyi etmək turizm və şəhər iqtisadi inkişafına katalizator kimi dəyərləndirilir. Hər bir yarış adətən 3 günlük həftəsonunu əhatə edir, turistləri və fanatları dünyanın hər bir yerindən keçirilən ölkəyə cəlb edir. Bu axın tədbirə ev sahibliyi edən şəhərdə satılıb bitmiş otel otaqları, restoranların dolması və pərakəndə satışların artmağı ilə nəticələnir [7]. Nümunə olaraq, Sinqapur Qran Pris F1 gecə yarışı 2023-cü ildə 250.000 izləyici cəlb etmişdi, onların 40%-dən çoxu xaricdən gələnlər idi [7]. 2023-cü ildə keçirilən ilk Las Vegas Qran Pris yarış həftəsində 1.2 milyard dollardan çox iqtisadi artım gətirəcəyi proqnozlaşdırılmışdı [7]. Bu kimi əsas tədbirlər yerli qonaqpərvərlik sahəsini gücləndirir. Avstraliyada Melbrunda keçirilən F1 yarışı Viktoriya əyalətində keçirilən ən yaxşı tədbirlərdən biri olaraq dəyərləndirilir, 1 həftə ərzində təxminən 1.5 milyon otel gecələməsi olubdu [9]. Hətta orta ölçülü iqtisadiyyata sahib ölkələrdə də gözə çarpan dərəcədə təsirlər müşahidə olunur. Texasın Ostin şəhərində ABŞ Qran Prisinə ev sahibliyi etmək 2019-cu ildə təkcə turizm ilə bağlı gəlirlərin 300 milyon dollara çatmağı ilə nəticələnmişdi [9]. Son illərdə “Austin’s Circuit of the Americas” illik 400 milyon dolları keçən iqtisadi təsir bağışladığını bildirdi [7].

F1 yarışlarının iqtisadi dinamikaya təsirlərinin başlıca yollarından biri biznes imkanları və yeni iş yerlərinin yaranmasıdır. Qısa müddətdə hər bir Qran Pri üçün tədbirlər, təhlükəsizlik, qonaqpərvərlik, logistika və digər servislər üçün minlərlə müvəqqəti iş yerləri yaradılır [7]. Yerli bizneslər, otel və restoranlardan tutmuş taksilərə və məhsul satıcılarına qədər hamı artan tələbdən xeyir görürlər. Burada həmçinin daha uzunmüddətli məşğulluq faydaları da yaranır. Uzunmüddətli dövrdə bəzi ev sahibi şəhərlər F1 yarışı vasitəsilə əyləncə və idman mərkəzinə çevrilmişdir, uzunmüddətli iş yerləri və yeni biznes imkanları yaranmışdır. Misal olaraq Əbu Dabidə keçirilən F1 yarışı Yas adasında əyləncə turizm kompleksinin formalaşmasına səbəb olmuşdur, bununla da turizm və tikinti üzrə müxtəlif iş imkanlarının yaranmışdır [7]. Əlavə olaraq, F1 yarışlarının keçirilməsi infrastruktur sərmayələri də tələb edir - yolların yaxşılaşdırılması, ictimai nəqliyyatın təkmilləşdirilməsi, yeni tikililərin tikilməsi. Bu proyektlər yarış üçün edilsə də, yarışdan sonra da yerli iqtisadiyyatın artımı üçün öz xeyirlərini verməyə davam edəcək. Misal olaraq, Romada yarış keçirilməyi müzakirə olunduqda, bunun şəhəri təmizləmək və transportasiya üçün investisiyalar edilməsinə məcbur edəcək [1]. Bir çox şəhərlər F1-in infrastruktur və şəhər yenilənmələrinə təsir etdiyini bildirdi, hansı ki böyük ehtimalla başqa cür bunlar baş tutmayacaqdı.

Qran Pri-yə ev sahibliyi etmək həm də ev sahibi ölkə üçün qlobal marketinq vasitəsi rolunu da oynayır. Yarışlar 180-dən çox ölkədə yayımlanır, ev sahibliyi edən ölkənin brendinqi yüz milyonlarla izləyiciyə nümayiş olunur [7]. Bu media diqqəti turizmi artırmaq və xarici sərmayə artırmaq istiyən ölkə üçün əvəzolunmazdır. Misal olaraq, Monoka dövləti məşhur Monoko Qran Prisini lüks və eksklüzivlik imicini artırmaq üçün istifadə edir. Monokada F1 həftəsonusu illik turizm gəlirlərinin 30 faizini təşkil edir [7]. Yeni ev sahibliyi edən ölkələr də buna bənzər imic yaratmağı hədəfliyirlər. Qətər, Bəhreyn, Səudiyyə Ərəbistanı F1 yarışlarına yüksək miqdarda sərmayə edərək öz brendinlərini artırmağa və iqtisadiyyatlarını turizm və servisə doğru yönəltməyə çalışırlar. ABŞ isə əvvəl bir Qran Prisə ev sahibliyi etdiyi halda indi üç Qran Pris yarışına (Ostin, Mayami, Las Veqas) ev sahibliyi edir. Bununla F1-in populyarlığından faydalanaraq Amerikanın müxtəlif şəhərlərini dünyaya tanıtmasında rol oynayır. Bu qlobal diqqət davamlı turizmin artımına səbəb olur, araşdırmalar göstərir ki, yarış olmayan dövrlərdə də ev sahibi şəhərlər qazandıqları beynəlxalq reputasiya sayəsində turist cəlb etməyə davam edir [2].

Bu verdiyi açıq xeyirlərə baxmayaraq, beynəlxalq təcrübə qarışıq nəticələrin üzə çıxarıq. F1 tədbirinə ev sahibliyi etmək olduqca bahalıdır. Şəhərlər Formula One Group – a illik ödəniş etməlidirlər və bu məbləğ yeni məkanlar

üçün təxminən hər yarış üçün 30-55 milyon dollara qədər yüksəlmişdir [5][8]. Bundan əlavə təşkilatçılar infrastruktur, təhlükəsizlik və əyləncə tədbirləri üçün də əlavə xərclər çəkirlər. Misal olaraq, Ruanda Qran Prisi üçün lazım olan infrastruktur tikintisi üçün 270 milyon dollar vəsait təxmin edilirdi, bundan əlavə olaraq da illik həmin infrastrukturun 18.5 milyon dollar baxım xərcləri var [5]. Güclü iqtisadiyyata sahib ölkələr (Sinqapur, ABŞ, Körfəz ölkələri) bu xərcləri qarşılaya bilir və bunları qlobal mövqelərini artırmaqda sərmayə kimi görürlər. Lakin, kiçik iqtisadiyyata sahib ölkələr bu xərcləri çəkməkdə çətinlik çəkirlər. Ev sahiblərinin nəzarətində olan gəlir mənbələri çox vaxt ödənişləri və xərcləri tam ödəmir, yaranan maliyyə boşluğu isə adətən dövlət dəstəyi ilə doldurulur [5]. **Michigan Journal of Economics**-in araşdırmasına görə, ən çox gəlir gətirən mənbələri – beynəlxalq televiziya yayım hüquqları və qlobal sponsorluqlar – ev sahibi şəhərlərə yox, F1-in sahiblərinə gedir [5]. Bu balanssızlıq o deməkdir ki, ev sahibləri F1 xərclərini birbaşa mənfəətlə yox, dolayı iqtisadi xeyirlərlə əlaqələndirirlər.

F1-in və digər meqa tədbirlərin iqtisadi təsiri ilə bağlı akademik ararşdırmalar bu ziddiyyətli vəziyyəti əks elətdirir. Bəzi araşdırmalar göstərir ki, göstərilən faydalar təbliğat xarakterli araşdırmalar ilə çox vaxt şişirdilir. Misal olaraq, 1990 – 2023-cü illər arasında Avropada F1 yarışlarına ev sahibliyi etmiş 14 regionda aparılan geniş miqyaslı iqtisadi təhlillər onu göstərib ki, bu tədbirə ev sahibliyi etmək bölgələrin ÜDM, məşğulluq və turizm göstəricilərində statistik baxımından əhəmiyyətli müsbət təsir göstərməyib, hətta bəzi hallarda kiçik miqdarda da olsa mənfi nəticələri olduğu bildirilib [6].

Castro və Menzes öz araşdırmalarında F1 tədbirinin ev sahibliyi edən ölkənin iqtisadiyyatına müsbət təsir göstərmədiklərini bildiriblər. Bu tip meqa tədbirlərə edilən xərclərin çox vaxt fürsət xərcləri yaratdığını bildirib, hansı ki bu xərci başqa sahələrə yönəldərək daha yüksək geri dönüş əldə etməyin mümkün olduğunu bildirib. Bu cür tədbirlərdən əldə edilən faydalar "arzuolunan" kimi dəyərləndirilsə də, əsasən siyasi qərarları əsaslandırmaq üçün istifadə olunur [6].

Digər tərəfdən, başqa araşdırmalarda da qeyd olunur ki, bir çox analizlər çətin ölçülən dəyərləri nəzərə alınmır: ölkənin beynəlxalq imicinin yaxşılaşdırılması, gələcək üçün turizmin artımı, şəhərin infrastrukturunun yaxşılaşdırılması və şəhərin abadlaşdırılma işlərinin sürətləndirilməsi. Həmçinin qeyd olunur ki, keçirilən hər yarışın nəticəsi eyni olmur, bu keçirilən ölkə və şəhərə görə fərqli nəticələr verir. Turistlərin marağını cəlb edən şəhərlərdə keçirilən yarışlar müsbət təsir göstərir, amma turizm baxımından zəif məkanlarda müsbət nəticə əldə etmək çətin ola bilir. Təcrübədə çox az ev sahibi F1-dən öz xoşu ilə imtina edib. Bu ondan irəli gəlir ki, əksər ölkələr bu tədbirin faydalarının xərclərindən üstün olacağına inanır.

**Formula 1-in Azərbaycanda iqtisadi təsiri**

Azərbaycanda son illər ərzində iqtisadiyyatın qeyri-neft sektorlarını, xüsusən də turizm və xidmət sahələrini artırmağa doğru addımlar atılıb. Turizmi canlandırmaq planının əsas hissəsi kimi Formula 1 yarışına ev sahibliyi etməyə başlanmışdır. İlk dəfə 2016-cı ildə Bakı şəhərində "Avropa Qran Prisi" adı ilə yarış təşkil olundu, sonrakı illərdə isə Formula 1 Azərbaycan Qran Prisi kimi davam etdi. F1 Bakını dünyaya tanıtmaq və iqtisadi fəallıq yaratmaq vasitəsi kimi istifadə olundu. İlk illərin göstəricilərinə baxsaq, yarışın yerli iqtisadiyyata əhəmiyyətli həcmdə vəsait cəlb etdiyini müşahidə edərik. Baku City Circuit-in sifarişi ilə PricewaterhouseCoopers tərəfindən aparılan araşdırmaya görə, ilk dörd yarış (2016–2019) Azərbaycanın iqtisadiyyatına ümumilikdə 506,3 milyon dolları xeyir verib [2]. Bu məbləğ F1 qonaqları və komandalarının xərclərini, eləcə də həmin vəsaitin digər sahələrdə dövriyyəsi nəticəsində yaranan dolayı təsirləri əhatə edir. Yalnız ilk iki yarışın keçirildiyi həftəsonunda ümumilikdə təxminən 277 milyon dolları qazanmışdır [4]. 2022-ci il üçün aparılan bir təhlil həmin il keçirilən Azərbaycan Qran Prisinin təkbaşına Bakının iqtisadiyyatını təxminən 500 milyon dolları həcmində canlandırdığını göstərir [7] – bu rəqəm, çox güman ki, pandemiyadan sonrakı turizm bərpasını və zamanla yığılan kumulyativ faydaları əks etdirir.

Azərbaycanda bir neçə sektor F1 yarışlarının təsirini müşahidə etmişdir. Təbii olaraq, dövlətin bu sahəni inkişaf etdirməyi məqsədlədiyi Turizm və otelçilik sahəsi başlıca töhfə görənlərdəndir. Yarış həftəsonlarında Bakıda xeyli sayda Turist cəlb olunmuşdu, hansı ki otellərin dolması, restoranlara tələbatın artması, tur servislərinin və yerli

satışların artması ilə müşahidə də olunurdu. PwC analizinə görə 2016-2019-cu illərdə turizm, qonaqpərvərlik və nəqliyyat servisləri təxminən 74 milyon dollar gəlir əldə etdilər. Bu qiymət sadəcə birbaşa təsirləri əhatə edir, bilavasitə təsirləri nəzərə alınmıyıbdı [2]. Qran Pri Bakını seçilən turizm destinasiyası olmağına təsir etmişdir. Rəsmi turizm məlumatlarına əsasən, 2019-cu ildə F1 yarışları turistləri ölkəyə cəlb edən əsas təsirlərdən biri olmuşdur, əsasən də Avropa və Orta Asiyadan turistləri Bakıya cəlb etmişdir. F1 yarışının yayımlanmasından da ciddi dərəcədə izləyici toplanmışdır, 2018-ci ildə baş tutan yarışda 82 milyon izləyici olmuşdur, bu rəqəm 2019-cu ildə 90 milyona çıxmışdır [2]. Televizor yayımlanmasından gələn izləyicidən əlavə olaraq, sosial mediada paylaşımlar, tədbir haqqında yayımlanan xəbərlər Azərbaycanın dünya üzərində imicinə təsir etmiş, əsas tədbirlərin ev sahibi kimi brendinqini artırmışdır [2].

F1 yarışlarının digər təsir sahələrindən biri məşğulluq və yerli bizneslərin inkişafıdır. Hər il Qran Pri-yə ev sahibliyi etmək ciddi sayıda işçi qüvvəsi tələb edir və bu yaranan iş yerlərinin bir çoxu yerli əhali tərəfindən doldurulur. Tədbirin ilk illərində təşkilatçıların verdiyi məlumata əsasən, hər yarış həftəsonu üçün 5.000-10.000 arası müvəqqəti iş yaradılırdı və 2018, 2019-cu illərdəki yarışlarda 7.500 iş yaranmışdı [2]. Bu tipli qısa müddətli işlər yerli əhaliyə həm gəlir gətirir, həm də dəyərli təlim və təcrübə qazandırır.

Gənclərin cəlb olunmasına da xüsusi diqqət verilmişdi, Azərbaycandan bir çox gənc bu tədbirdə iştirak edərək, böyük tədbirlərdə işləmək təcrübəsinə sahib olmuşdur. Hansı ki bu da turizm və gələcəkdə keçiriləcək digər mühüm tədbirlər üçün insan kapitalı yetişdirir [2].

Yarış həftəsonulardan əlavə F1 tədbirinin mövcudluğu yerli müəssisələrin inkişafına da töhfə verdi. Tur operatorlar, suvenir satıcıları, nəqliyyat şirkətləri və tədbir təşkilatçıları F1 qonaqlarına xidmət vermək üçün öz fəaliyyətlərini genişləndirmişdirlər. Hər il Bakı yarışları yüzlərlər könüllu cəlb edir, könüllülər bu tədbirlərdə iştirak edərək təcrübə və bacarıqlar qazanır və gələcək tədbirlərdə ödənişli işlərdə işləmək üçün fürsət yaradır.

Baxmayaraq ki, əksər F1 ilə bağlı işlər müvəqqəti olur, davamlı kadr bazası da formalaşır. Misal olaraq, Baku City Circuit şirkəti ilboyu hazırlığa nəzarət etmək üçün yüzlərlə tam ştat işçi çalışdırır [4]. Daha geniş iqtisadi prespektivdən baxdıqda F1 mövsumi məşğulluğu artırır və tədbirin hazırlıq müddətində tikinti, pərakəndə satış və telekommunikasiya kimi sahələrdə canlanma yaradır [2].

Bakıda infrastruktur inkişafı və şəhərin abadlaşdırımasında F1 tədbirinin də rolu olub. Şəhərin yollarında keçirilən yarışa ev sahibliyi etmək çərçivəsində dövlət mühüm infrastruktur yenilənmələri həyata keçirtdi. Xüsusən də 2016-cı ildə keçirilən yarışdan öncə böyük yol bərpa proqramı icra olundu. Təxminən 4.500 $m^2$ şəhəryolu yenidən asfaltlandı və bəzi ictimai nəqliyyat stansiyaları təmir edildi [2]. Bu təkmilləşdirmələr F1 yarışlarına isitnadən olunsa da, yarışdan sonra gündəlik əhalinin istifadəsi üçün şəhər nəqliyyatını yaxşılaşdırdı və şəhərin müasir görünüşünü gücləndirdi.

2016-2019-cu illərdə yerli tikinti sektoru F1 ilə bağlı işlərdən birbaşa və dolayı yollarla ümümilikdə 181.4 milyon dollar iqtisadi fayda görmüşdür [2]. Təkmilləşdirmələrə yol örtüyünün yenilənməsi, yeni piyada keçidləri, azərkeş zonalarının qurulduğu və konsertlərin baş tutduğu Bakı bulvarının abadlaşdırılması daxildir. Hər il müvəqqəti qurğular qurulur və sonra sökülür, bəzi əsas qurğular tribuna konstruksiyaları kimi bir dəfə alınaraq hər il təkrar istifadə olunur, bu da öz növbəsində uzunmüddətli xərcləri azaldır [3].

On minlərlə qonağa ev sahibliyi etmək zərurəti qonaqpərvərlik infrastrukturun gücləndirilməsinə məcburiyyət yaratdı. Yeni otellərin açılmasına, hava limanı xidmətlərinin yaxşılaşdırılmasına və beynəlxalq xidmət standartlarının yaxşılaşdırılması üçün təlimlər keçirilməsinə stimul yaratdı.

Mahiyyət etibarı ilə, F1 tədbirinin keçirilməsi şəhər inkişafı üçün stimullaşdırıcı rol oynuyur, şəhərin əsas planındakı lahiyələri həyata keçirilməsini sürətləndirdi və xidmətlərin ümumi olaraq yüksəlməsinə səbəb oldu. Bu təkmilləşdirmələr 2040-cı ilə qədər daha canlı və turist dolu şəhər mühitinin yaradılması prosesinin bir hissəsi kimi qiymətləndirilə və F1 tədbirinin bu

üzrə davamlı hərəkətverici bir amil kimi hesab edilə bilər.

Maliyyə baxımından Azərbaycanda F1 tədbirini keçirtməyin gəlir və xərcləri illər ərzində dəyişmişdir. İlk illərdə F1 tədbirini keçirtmək çox böyük xərclər tələb edirdi. Dövlət yarış yolu üçün infrastrukturun tikintisinə sərmayə qoymuşdur və tədbirin ölkədə keçirilməsi üçün F1 tarixinin ən yüksək ev sahibliyi haqlarından birini ödəmişdir. 2019-cu ilə gəldikdə bəzi xərclərin azaldıldığı rəsmi mənbələr tərəfindən bildirilmişdir. Tribunuların alınması və asfalt örtüyü kimi kapital xərclər bir dəfəlik idi, infrastrukturun təkrar istifadəsi və Bakı keçirilən F1 yarışlarının qlobalda tanınırlığının artması səbəbi ilə reklam xərcləri də azalmışdır [3].

Tədbir Bakıda tanınmağa başladıqca beynəlxalq və yerli bilet satışlarında da artım olmuşdur. Bəzi illərdə biletlər 70 ölkədən azərkeşlər tərəfindən alınmıçdır [3], bu isə xarici ölkələrdən güclü maraq olduğunu göstərir. Bu qazanclara baxmayaraq, yarış hələ də dövlət tərəfindən ciddi şəkildə subsidiyalaşdırılır. Dövlət F1 tədbirinin ev sahibliyi etmək üçün ödənən haqqı və logistika xərclərini büdcədən qarşılayır. 2023-cü il üçün ev sahibliyi haqqının təxminən 55-57 milyon dollar olduğu bildirilmişdir [8][5]. Bu əhəmiyyətli bir məbləğdir, illik büdcə sənədləri göstərir ki, F1 və oxşar iri tədbirlər üçün dövlət ciddi vəsait ayırır. Misal olaraq, 2021-ci ildə dövlət büdcəsindən 80 milyon manat F1 və UEFA futbol oyunlarının keçirilməsi üçün ayrılmışdır [8].

Bu rəqəmlər onu göstərir ki, bilet satışları və yerli sponsorluqlar kimi birbaşa gəlirlər dövlətin xərclərini tam olaraq qarşılamağa kifayət etmir. Xərclərin birbaşa gəlirlər ilə qarşılanmamasına baxmayaraq, bu tədbirə ev sahibliyi etməyə davam etməkdəki məntiq dolayı gəlirlər və daha geniş iqtisadi dinamikanın yaradılmasıdır. Həqiqətən də, PwC tərəfindən hazırlanmış hesabat bu əsaslandırmanı dəstəkləyir, dörd il ərzində (2016-2019) hesabata əsasən iqtisadiyyata 506 milyon dollar daxil olmuşdur. Bunlardan belə çıxır ki, dövlət qısa müddətli qazanclara, birbaşa gələn gəlirlərə yox, daha çox beynəlxalq nüfuz, turizmin inkişafı, iqtisadiyyatın şaxələndirilməsi kimi uzun müddətli geri dönüşümə əsasən investisiyalar etmişdir. Bunun sübutu kimi də turistlərin gəlmələrinin sayının artması və şəhərin turizm destinasiyaları reytinqində yüksək pillələrə çıxmasını göstərmək olar [7].

Bununla belə, Azərbaycanda keçirilən F1 tədbirində müəyyən çətinlikər görülür. Əsas çətinliklərdən biri daimi olaraq turizmin yüksəlməyini təmin etməkdir. 2016-2019-cu illərdə turist gəlişində artım görülmüşdür, lakin COVİD-19 pandemiyası vəziyyəti dəyişdirdi. Buna görə, 2020-ci ildə keçiriləcək yarış ləğv edildi və 2021-ci ildə izləyicisiz keçirildi, bu da öz növbəsində turist gəlimində ciddi düşüşə səbəb oldu. Pandemiya bitdikdən sonra yarış davam etsə belə, Azərbaycan quru sərhədlərini bağlı saxladı və bu da regional turist axımına mənfi təsir göstərdi [8]. Nəticədə, gözlənilən sıçrayış qeyri-bərabər oldu. Digər bir çətinlik isə yarışın şəhərin küçələrində keçirilməsi idi. Yarışa görə bəzi yollar əvvəlcədən bağlanılırdı, bu da şəhərdə tıxacın artmasına səbəb olurdu.

Ümumilikdə, Azərbaycan nümunəsi göstərir ki, F1 yarışları iqtisadi dinamikaya təsir edə bilər. Sərmayə buraxılmasına səbəb olur, yeni iş yerləri açılır, infrastrukturun yaxşılaşdırılır və ölkənin beynəlxalq imicini yüksəldir. Lakin, bütün bunların ehtiyyatla idarə olunması vacibdir. Azərbaycan bugünə kimi F1 konraktını yeniləməyə davam etmişdir və bu qərar xərclərə baxmayaraq üstünlüklərin xüsusən də turizm və beynəlxalq imic üçün əsaslı olduğunu düşünərək verilmişdir. Qran Pri artıq Azərbaycanın illik təqvimində imza tədbirlərdən birinə çevrilmişdir, çox vaxt konsertlər və mədəni festivallar ilə birlikdə təşkil olunur ki, bu da cəlb ediciliyini artırır.

**Nəticə**

Formula 1 yarışları ev sahibliyi edən ölkələrin iqtisadi dinamikasının stimullaşdırılmasında mühüm rol oynayır, baxmayaraq ki, bu təsir ölkədən ölkəyə dəyişir. Beynəlxalq təcrübəyə baxdıqda onu göstərir ki, F1 Qran Prisi ev sahibliyi edən ölkələrə qısamüddətli birbaşa iqtisadi faydalar gətirə bilər, turizmdə xərcləmələrin artması, dolmuş otellər, yerli bizneslərin canlanması və minlərlə sakin üçün müvəqqəti iş imkanları yaranması kimi nümunə gətirmək olar.

F1-ə ev sahibliyi etmək şəhərin qlobalda tanınırlığına müsbət təsir göstərir və investisiya etməyə dəyər bir məkan kimi brendinqini də artırır. Bu da uzunmüddətli turizm maraqlarının artmasına və yeni biznes imkanlarının yaranmasına

səbəb ola bilər. Bir çox hallarda yarışa ev sahibliyi etmək, yolların, nəqliyyatın, ictimai obyektlərin yaxşılaşdırılması kimi infrastruktur yaxşılaşdırılmalarına təkan verir. Bu da uzunmüddətli iqtisadi və sosial dəyər yaradır.

Bütün bunlar daha dinamik yerli iqtisadiyyata töhfə verir, bunu Sinqapur, Monako və Ostin kimi aparıcı Qran Pri ev sahiblərində görmək olar. Bu şəhərlərdə yarışlar illik iqtisadi təqvimdə əsas tədbirə çevrilmiş və davamlı olaraq iqtisadi faydalar gətirmişdir.

Azərbaycan təcrübəsində də F1 yarışlarının müsbət təsir göstərdiyini görə bilərik. 2016-cı ildən bəri F1 yarışları ölkə iqtisadiyyatına yüz milyonlarla dollar vəsait gətirmişdir, turizm sektorunun inkişafına kömək etmişdir, Azərbaycanı dünyada tanıtmağa töhfə vermişdir. Bu həmçinin ölkənin qeyri-neft sektorlarını canlandırmaqla iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş strateji keçidinə kömək etmişdir.

Bakının hər il keçirilməsi mürəkkəb olan və yüksək nüfuzlu tədbirə uğurla ev sahibliyi etməsi dünyaya Azərbaycanın dünya miqyasında dinamik inkişaf edən idman və turizm mərkəzinə çevrildiyini göstərir. Bakıda keçirilən yarış həftəsonları artıq şəhərin iqtisadi və ictimai həyatında mühüm hadisəyə çevrilmişdir. Bu fakt, meqa tədbirlərin şəhərin iqtisadi dinamizmini artırmaqla yanaşı, onun beynəlxalq mövqeyini gücləndirdiyini də göstərir.

Araşdırmalar göstərir ki, F1 yarışlarından iqtisadi dinamizmin əldə edilməsi zəmanətli deyil. Faydalar əhəmiyyətli maliyyə və sosial xərclər ilə birlikdə gəlir və bu xərclər diqqətlə idarə olunmalıdır. Azərbaycan və digər ev sahibliyi edən yüksək miqdarda xərclərlə qarşılaşırlar. Əgər bu xərclərə nəzarət düzgün aparılmazsa, xərclər gəliri üstələyə bilər, bu halda da iqtisadi qazanc yalnız dolayı gəlirlərdən aslı olur ki, bunun da ölçülməsi dəqiq ola bilmir.

Bundan əlavə, padnemiya və ya beynəlxalq səyahət trendləri kimi xarici faktorlar da iştirakçı sayına təsir edə bilər, bu da öz növbəsində iqtisadi gəlirə təsir göstərmiş olur. Bunun nümunəsi olaraq Azərbaycanın F1 yarışlarından əldə etdiyi turizm artımını COVİD-19 dövründə dayanmasıdır.

Akademik məlumatlardan əldə edilən nəticələr onu göstərir ki, F1 iqtisadi stimullaşdırma aləti olsa belə, müstəqil bir həll kimi yox, daha geniş və uzunmuddətli inkişaf strategiyasının bir hissəsi kimi daha effektiv olur. Yarışı daha geniş turizm inkişaf kanpaniyalarına, şəhər inkişaf planlarına inteqrasiya edən ev sahibləri davamlı dinamizm əldə etməkdə onu yalnız bir dəfəlik nümayiş tədbiri kimi qəbul edənlərdən daha uğurlu olur.

Nəticə olaraq, Formula 1 yarışları dünya miqyasında ev sahibi ölkənin iqtisadi dinamizminə təsir göstərən güclü, lakin mürəkkəb alət kimi çıxış edir. Yarışlar həm turizmi, məşğulluğu və infrastruktur inkişafına təsir göstərir, həm də ev sahibi ölkələrin beynəlxalq imicini formalaşdırmağa kömək edir. Bu təsirlərin davamlı olması yalnız yarışın göstəriş tədbiri kimi yox, strateji iqtsadi siyasətin hissəsi kimi dəyərləndirildikdə mümkündür. Azərbaycanda keçirilən F1 təcrübəsi onu göstərir ki, F1 kimi meqa-tədbirlər qeyri-neft sektorunun inkişafına təsir edə, ölkənin iqtisadiyyatının şaxələndirməsinə xidmət edə və onu beynəlxalq turizm xəritəsində mövqeyini möhkəmləndirə bilər.

Gələcək üçün əsas vəzifə bu tədbirlərin faydalarını daha geniş ictimaiyyətə çatdırmaq və əldə olunan qazancları uzunmüddətli iqtisadi və sosial dəyərlərə çevirməkdir. Bu halda Formula 1 yarışları Azərbaycanın turizmi üçün davamlı inkişafına töhfə verə bilər.

**ƏDƏBİYYAT SIYAHISI:**

1. Avallone, A. Economic Impact on Cities Hosting Formula 1 Races // Wesleyan Business Review. – 2023, 12 dekabr. – [Elektron resurs]. – URL: https://www.wesleyanbusinessreview.com/issueixentertainment/blog-post-title-one-df43a-2k4el-4thmn
2. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZERTAC). PricewaterhouseCoopers study reveals $506.3 million benefit to Baku since arrival of F1 in Azerbaijan // AZERTAC News. – 2020, 15 yanvar. – [Elektron resurs]. – URL: https://azertag.az/en/xeber/pricewaterhousecoopers_study_reveals_5063million_benefit_to_baku_since_arrival_of_f1_in_azerbaijan-1387954
3. Azernews. Arpadarai: Costs of F1 Azerbaijan decrease, while revenues grow // Azernews. – 2019, 19 fevral. – [Elektron resurs]. – URL: https://www.azernews.az/sports/145885.html
4. Baku City Circuit. PricewaterhouseCoopers Study Reveals $277.3 million F1 Benefit to Baku // Baku City Circuit News. – 2018. – [Elektron resurs]. – URL: https://www.bakucitycircuit.com/news/pwc-study-reveals-277-million-usd-f1-benefit-to-baku
5. Barigaba, J. Rwanda battles SA and Morocco for Grand Prix // The East African. – 2024, 27 sentyabr. – [Elektron resurs]. – URL: https://www.theeastafrican.co.ke/tea/magazine/rwanda-battles-sa-and-morocco-for-grand-prix-4777824
6. Castro, J.; Menezes, A. The Economic Impact of Formula 1: Portuguese Grand Prix // European Review of Business Economics. – 2024. – c. IV, № 1. – s. 29–47. – [Elektron resurs]. – URL: https://erbe.autonoma.pt/articles/ERBE04102-The-economic-impact-of-Formula-1-Portuguese-Grand-Prix.pdf
7. Global Tourism Forum. The Economic and Tourism Impact of Formula 1: Racing Towards Destination Growth // Global Tourism Forum News. – 2025, iyul. – [Elektron resurs]. – URL: https://live.worldtourismforum.net/news/the-economic-and-tourism-impact-of-formula-1-racing-towards-destination-growth
8. Ibadoghlu, G. The Political and Economic Impact of Formula 1 Races in Azerbaijan: Myths and Realities. – 2024, oktyabr. – Working Paper. – [Elektron resurs]. – URL: https://www.econstor.eu/bitstream/10419/303482/1/Ibadoghlu-Formula-1-Races-in-Azerbaijan.pdf
9. Jha, A. The Relationship Between Hosting Formula One Race and the Economic Growth of the Nation // Create Happy Media. – 2024. – [Elektron resurs]. – URL: https://createhappy.org/article/the-relationship-between-hosting-formula-one-race-and-the-economic-growth-of-the-nation/

**Мубариз Мамедгусейн оглы Багиров, доктор экономических наук, профессор**
Национальная авиационная академия
mubariz.bagirov61@gmail.com

**Азер Гусейн оглы Мехтиев**
Докторант, Азербайджанский университет туризма и менеджмента
mehdiyev.azer@atmu.edu.az
ORCID: 0009-0004-1676-4758

## ВЛИЯНИЕ ГОНОК ФОРМУЛЫ-1 НА ТУРИЗМ И ИХ РОЛЬ В ОБЕСПЕЧЕНИИ ЭКОНОМИЧЕСКОГО ДИНАМИЗМА: ПРИМЕР АЗЕРБАЙДЖАНА И МЕЖДУНАРОДНЫЙ ОПЫТ

**Резюме**

В данной статье оценивается влияние гонок Гран-при Формулы-1 на экономическую динамику Азербайджана и международную практику. В исследовании анализируются выгоды

и риски для туризма, занятости, инфраструктуры и международного имиджа страны. Результаты показывают, что Формула-1 генерирует туристические расходы в краткосрочной перспективе, приводит к созданию дополнительных рабочих мест. В долгосрочной перспективе это укрепляет международный имидж страны как туристического направления и приводит к развитию инфраструктуры. Рассматривая опыт Азербайджана, можно сказать, что гонки Формулы-1 способствуют диверсификации экономики, развитию ненефтяного сектора, особенно туризма. Международная практика показывает, что такие примеры, как Сингапур, США и Монако, приводят к сильным туристическим потокам и повышению экономической активности. Однако высокие сборы за размещение и организационные расходы часто требуют бюджетной поддержки, а некоторые исследования указывают на то, что прямой доход может быть ограничен.

**Ключевые слова:** *формула 1, мега-событие, экономический рост.*

**Mubariz MammadHuseyn oglu Baghirov,**
Doctor of Economics, Professor

**Azer Huseyn oglu Mehdiyev**
PhD student, Azerbaijan Tourism and Management University

## THE IMPACT OF FORMULA 1 RACES ON TOURISM AND THEIR ROLE IN ENSURING ECONOMIC DYNAMISM: THE EXAMPLE OF AZERBAIJAN AND INTERNATIONAL EXPERIENCE

### Abstract

This article assesses the impact of Formula 1 Grand Prix races on economic dynamism in Azerbaijan and international practice. The study analyzes the benefits and risks for tourism, employment, infrastructure and the country's international image. The results show that F1 generates tourist spending in the short term, leads to the creation of additional jobs. In the long term, it strengthens the country's international image as a tourist destination and leads to the development of infrastructure. Looking at the Azerbaijani experience, F1 races contribute to the diversification of the economy, the development of the non-oil sector, especially tourism. International practice shows that examples such as Singapore, the United States and Monaco lead to strong tourist flows and increased economic activity. However, high hosting fees and organizational costs often require budgetary support, and some studies indicate that direct income may be limited.

**Keywords:** *Formula 1, Economic Impact, mega-event, Economic Growth*